# İşğaldan azad edilmiş ərazilərdə məktəb tikintisinə start verilmişdir



***"Böyük Qayıdış"la bağlı azad edilmış ərazilərdə infrastruktur layihələrinin reallaşması istiqamətində işlər davam etdirilir. Şəhər, qəsəbə və kəndlərə yollar çəkilir, yeni elektrik stansiyaları işə salınır, mehmanxanalar tikilir, inşa ediləcək xəstəxanaların, məktəblərin, uşaq bağçalarının layihələri hazırlanır.***

Artıq Şuşada 1 nömrəli məktəbin layihələndirmə işləri yekunlaşıb və tezliklə tikintiyə başlanılacaq. Bunu Təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib. Nazir deyib ki, prosesin 2022-ci ilin sonuna qədər bitməsi gözlənilir:

"Yəqin ki yaxın zamanlarda Füzuli şəhərində də məktəb tikintisi ilə bağlı addımların atılması gözlənilir. Bu, çox ciddi və böyük prosesdir. Həmin bölgələrdəki məktəb layihələri ən yaxşı layihələrdir. Həm Ağdam, həm də Şuşa məktəbi arxitektura xüsusiyyətlərinə görə ən müasir məktəblərimizdən olacaq".

Prezident İlham Əliyev hələ may ayında Ağdamda olarkən rayon ictimaiyyəti nümayəndələri ilə görüşündə demişdir: "Ağdam və Cəbrayılda məktəblərin layihələndirmə prosesi başlayıb. Yəqin ki, yaxın zamanlarda Füzuli şəhərində də məktəb tikintisi ilə bağlı addımların atılması gözlənilir".

***M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 21 dekabr.- S.7.